Funded by
the European Union

# Zorakılığa yox deyək!

**ZORAKILIĞIN ISTƏNILƏN FORMASI QƏBULEDILMƏZDIR O, INSAN HÜQUQLARINI VƏ LƏYAQƏTINI POZUR, HƏMÇININ INSANIN FIZIKI VƏ PSIXOLOJI RIFAHINA TƏHLÜKƏ YARADIR.**

**Əgər düşünürsünüzsə ki, sizə və ya başqa bir insana qarşı zorakılıq törədilir, müraciət edə bilərsiniz:**

**Gürcüstan Daxili İşlər Nazirliyinə: 112**



**Ailə zorakılığı üzrə qaynar xətt: 116 006**

**Əgər dövlət qurumları vaxtında və uyğun reaksiya göstərməyirsə, müraciət edə bilərsiniz:**

**Gürcüstan Xalq Müdafiəçisinə: 14 81**

## ZORAKILIQ NƏDIR??

**Fiziki zorakılıq** - döymə, vurma, saçdan dartma, sağlamlığa zərər vurma və ya digər hərəkət, hansı ki, fiziki ağrı və ya əzab yaradır.

**Psixoloji zorakılıq** - şifahi (sözlü) təhqir, söyüş, daimi tənqid, alçaldıcı ifadələrin işlədilməsi və ya insanın şərəf və ləyaqətini alçaldan digər hərəkətlər.

**Cinsi zorakılıq** - şəxsin (o cümlədən, həyat yoldaşının) zor tətbiqi, zorakılıq hədəsi və ya zərərçəkənin aciz vəziyyətindən istifadə etməklə cinsi əlaqəyə girməsi və ya hər hansı formada cinsi xarakterli hərəkətlərin törədilməsi.

**İqtisadi zorakılıq** - həyat yoldaşı/partnyor və ya ailənin digər üzvü insanın işləməsinə icazə vermədikdə, onun gəlirini nəzarətdə saxladıqda və ya evə, qidaya və yaşayış əşyalarına çıxışını məhdudlaşdırdıqda baş verir.

**Məcbur etmə** - insanın yaxınları ilə ünsiyyət qurmasının qadağan edilməsi və ya onun iradəsinə zidd hər hansı bir hərəkəti etməsini və ya etməməsini qadağan etmək.

**Təqib** - insanın iradəsinə qarşı, onunla sosial şəbəkələr və ya digər vasitələrlə əlaqə yaratmaq, izləmək, yaşayış və ya iş yerində qarşılaşmaq kimi hərəkətlər etməklə onun həyat tərzində ciddi dəyişikliklərə səbəb olmaq.

**Yuxarıda qeyd olunan zorakılıq formaları həm üz-üzə, həm də sosial şəbəkələr və ya digər rəqəmsal kanallar vasitəsilə törədilə bilər.**

**Cəmiyyətin heç bir üzvü özünə və ya başqasına qarşı törədilən zorakılığa göz yummamalıdır!**

Bu nəşr Avropa İttifaqının dəstəyi ilə hazırlanmışdır. Onun məzmununa görə tam məsuliyyət Gürcüstanın Xalq Müdafiəçisi Aparatına məxsusdur və ola bilər ki, Avropa İttifaqının mövqeyini əks etdirməsin.